Unicapital
Hədsiz İmkanlar

# “Unicapital İnvestisiya Şirkəti” Açıq Səhmdar Cəmiyyətinin 2025-ci il üzrə açıqlamalı olduğu məlumatlar*

| İdarəetmə orqanları və vəzifəli şəxslər, onların əsas və əlavə iş yerləri, təhsili, ixtisası. | | | |
|---|---|---|---|
| **Vəzifəli şəxsin adı və soyadı** | **Əsas iş yeri** | **Əlavə iş yeri** | **Təhsili, ixtisası** |
| **Müşahidə Şurasının sədri Tahir Qəribov** | “Unibank Kommersiya Bankı” ASC / Biznes Bankçılığı üzrə Baş Direktor | “Unicapital İnvestisiya Şirkəti” ASC-nin Müşahidə Şurasının sədri | Elm və Təhsil Mərkəzi "Təfəkkür" Universitetində Ümumi iqtisadiyyat, King's College London ali məktəbində Biznesin idarə edilməsi ixtisası üzrə ali təhsil almışdır. |
| **Müşahidə Şurasının üzvü Emin Rəsulzadə** | “Unibank Kommersiya Bankı” ASC / Baş Maliyyə İnzibatçısının Müavini | “Unicapital İnvestisiya Şirkəti” ASC-nin Müşahidə Şurasının üzvü | M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunda Mühəndis elektrik ixtisası üzrə ali təhsil almışdır. |
| **Müşahidə Şurasının üzvü Faiq Hüseynov** | “Unibank Kommersiya Bankı” ASC / Müşahidə Şurasının üzvü, Müşahidə Şurası sədrinin müavini | “Unicapital İnvestisiya Şirkəti” ASC-nin Müşahidə Şurasının üzvü | Azərbaycan İnşaat Mühəndisləri Universitetində İqtisadçı mühəndis ixtisası üzrə təhsil almışdır. |
| **İcra orqanının rəhbəri Vüqar Namazov** | “Unicapital İnvestisiya Şirkəti” ASC-nin Baş direktoru | Milli Depozit Mərkəzinin Müşahidə Şurasının üzvü | 2005-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) Maliyyə-kredit ixtisası üzrə bakalavr və 2007-ci ildə Beynəlxalq iqtisadi münasibətlər ixtisası üzrə magistr təhsili alıb. 2025-ci ildən İqtisad elmləri üzrə fəlsəfə doktorudur. Bir çox beynəlxalq ixtisas sertifikasiyalarının o cümlədən, ABŞ Layihələrin İdarə Edilməsi İnstitutunun (PMI) Peşəkar Layihə Meneceri (PMP) sertifikatının sahibidir. 2021-ci ildə Kellog Biznes Məktəbinin Təşkilati liderlik proqramı üzrə təhsil almışdır. Maliyyə və maliyyə institutları, ticarət infrastrukturu, layihələrin idarə edilməsi, beynəlxalq əlaqələr və dövlət idarəçilik sahəsində təcrübəyə malikdir. Azərbaycan Dövlət İqtisad Universitetinin Avrasiya İqtisadiyyatı Beynəlxalq Tədqiqat Mərkəzinin tədqiqatçısıdır. |

| | |
|---|---|
| **Müşahidə Şurası üzvləri və icra orqanı rəhbəri ilə əlaqə vasitələri haqqında məlumat** | Telefon: (012) 541 33 33<br><br>Email: info@unicapital.az |
| **İnvestisiya şirkətinə aidiyyəti olan şəxslərlə aparılmış əməliyyatlara dair ümumi məlumatlar (həcmi, sayı)** | 14 aidiyyəti şəxslə cəmi məbləği 677 531 471.44 manat olan əqdlər bağlanmışdır. |
| **Cəlb edilmiş maliyyə vəsaitləri** | 200 343,50 manat |
| **Təşkilati strukturu** | https://unicapital.az/about/legal-documents/ ünvanında yerləşdirilmişdir. |
| **İnkişaf siyasəti (investisiya şirkətlərinin strateji baxışı və missiya bəyanatı, investisiya şirkətlərinin strateji hədəfləri)** | https://unicapital.az/about/legal-documents/ və<br>https://unicapital.az/about/ ünvanlarında yerləşdirilmişdir. |
| **Səhmdar kapitalının gəlirliyi** | 2025-ci il üzrə audit olunmuş maliyyə hesabatlarına əsasən, şirkətin cəmi kapitalı 1 942 136 manat, il üzrə xalis mənfəəti 285 434 manat təşkil etmişdir. Beləliklə, dövr ərzində səhmdar kapitalının gəlirliyi 15 faiz təşkil etmişdir. |
| **Dividend siyasəti** | https://unicapital.az/about/legal-documents/ ünvanında yerləşdirilmişdir. |
| **İnvestisiyaların həcmi və mənbəyi** | Müəssisənin investisiyalarının həcmi 1 101 467 manat təşkil edir və bu investisiyalar əsasən cəlb edilmiş maliyyə vəsaitləri və müəssisənin öz kapitalı hesabına maliyyələşdirilmişdir. |
| **Cəmiyyətin qiymətli kağızlarının dövriyyəsi və gəlirliyi (o cümlədən, investisiya qiymətli kağızlarının növü, forması, dövlət qeydiyyatı nömrəsi, nominal dəyəri, mülkiyyətçilərinin hüquqları, ödəniş müddəti)** | Hər birinin nominal dəyəri 3 manat olmaqla 100 000 ədəd AZ1002006943 qeydiyyat nömrəli sənədsiz, adlı adi səhm 24 noyabr 2015-ci il tarixində qeydiyyata alınmışdır. Səhmlər Bakı Fond Birjasında listinqdədir. Mülkiyyətçilər Azərbaycan Respublikası Mülki Məcəlləsi, habelə qiymətli kağızlar bazarı haqqında qanunvericilikdən irəli gələn hüquqlara malikdir. |
| **İnvestisiya şirkətində fəaliyyət göstərən daxili komitələr, onların əsas vəzifələri və tərkibi haqqında məlumat.** | Cəmiyyətdə bir daxili komitə - Audit Komitəsi fəaliyyət göstərir.<br><br>Audit Komitəsi Azərbaycan Respublikası Mülki Məcəlləsinin 107-12-ci, "Daxili audit haqqında" Qanunun 4.2-ci maddələrində, "İnvestisiya şirkətlərində korporativ idarəetmə Standartlarının" 8.2-ci bəndində müəyyən edilən əsas vəzifələri həyata keçirir.<br><br>Audit Komitəsinin tərkibi:<br>Audit Komitəsinin sədri: Hüseynov Faiq Arif oğlu<br>Audit Komitəsinin üzvü: Balayev Samir Həsən oğlu<br>Audit Komitəsinin üzvü: Məmmədov Fazil Müzahir oğlu (30.12.2025-ci il tarixədək) |

| | |
|---|---|
| | Audit Komitəsinin üzvü: Əliyeva Nərgiz Elçin qızı (11.03.2026-cı il tarixdən etibarən) |
| **İnvestisiya şirkətlərinin rəhbərliyində və təşkilati strukturunda baş verən əhəmiyyətli dəyişikliklər haqqında məlumat.** | Audit Komitəsinin üzvü Məmmədov Fazil Müzahir oğlu öz xahişi əsasında 30.12.2025-ci il tarixədə üzvlükdən azad edilmişdir.<br>Əliyeva Nərgiz Elçin qızı 11.03.2026-cı il tarixdən etibarən Audit Komitəsinin üzvü təyin edilmişdir. |
| **Mükafatlandırma siyasətinin əsas prinsipləri** | Mükafatlandırma Siyasətinin əsas prinsipləri aşağıdakılardır:<br>1. Qanunvericilik və Cəmiyyətin strategiyası ilə ziddiyyət təşkil etməməsi;<br>2. Dəqiq ölçülmüş meyarlar arasında obyektiv qiymətləndirmə ilə əməkdaşın əməyinin ədalətli ödənişinin həyata keçirilməsi, ödənişlərin müəyyən edilməsində hər hansı bir ayrıseçkiliyə yol verilməməsi, mükafatlandırma sisteminin əmək bazarı səviyyəsində uyğunluğunun təmin edilməsi;<br>3. Mükafatlandırmanın həm fərdi, həm də kollektiv əməyin stimullaşdırılmasına yönəlməsi;<br>4. Mükafatlandırmadan alınan səmərənin Cəmiyyət üçün stimullaşdırmaya yönəldilən xərclərdən çox olmamasının təmin olunması;<br>5. Mükafatlandırma siyasəti ilə bağlı məlumatların qanunvericiliyin tələblərinə uyğun olaraq açıqlamasının təmin olunması;<br>6. Cəmiyyətin strateji hədəflərə nail olmasına yönləndirilməsi;<br>7. Cəmiyyətin uzunmüddətli fəaliyyət nəticələrinə və mənfəətliyinə əsaslandırılması;<br>8. Cəmiyyətin risk iştahasının adekvat olması və izafi risk qəbulunun məhdudlaşdırılması;<br>9. Cəmiyyət tərəfindən üzərinə uzunmüddətli risklərin götürülməsi hesabına qısamüddətli dövrdə gəlir əldə etməsinə təşviq etməməsi;<br>10. Maraqlar münaqişəsinə yol verilməməsi;<br>11. Cəmiyyətə uyğun bilik, bacarıq və təcrübəyə malik əməkdaşların işə cəlb edilməsi və işə cəlb olunmuş şəxslərin loyallığının təmin edilməsinə şərait yaradılması; |
| **İnvestisiya şirkətinin son maliyyə ili üzrə auditini həyata keçirən kənar auditor haqqında məlumat** | Cəmiyyətin 2025-ci il üzrə maliyyə hesabatlarının auditi “Baker Tilly Azərbaycan” QSC (VÖEN:1300755991, Hüquqi və faktiki ünvanı: Bakı şəhəri, C.Məmmədquluzadə 102A, City Point Baku, 9-cu mərtəbə) tərəfindən həyata keçirilmişdir. |
| **Şirkətin kapitalında müvafiq iştirak payına malik olan səhmdarlar və onların iştirak payları barədə məlumat.** | “Unibank”Kommersiya Bankı” Açıq Səhmdar Cəmiyyəti (Bakı şəhəri, R.Behbudov küç., 55, məhəllə 384, VÖEN 1300017201) – hər birinin nominal dəyəri 3 AZN olan 100 000 adlı sənədsiz adi səhm, nizamnamə kapitalında payı-100% |
| **Müvafiq dövr üzrə müştərilərdən daxil olan şikayətlərin sayı, məzmunu və nəticələri barədə ümumiləşdirilmiş məlumat.** | Hesabat dövrü ərzində müştərilərdən 2 şikayət daxil olmuşdur.<br>Şikayətlər xidmətlərin göstərilməsi ilə bağlı olmuşdur. 2 şikayətin hər biri qanunvericiliyə uyğun cavablandırılmışdır.<br>Bütün müraciətlər üzrə müştərilər müraciətlərin nəticələri ilə razılaşmışdırlar. |
| **İdarəetmə orqanlarının hər bir üzvünə verilmiş ödənişlər haqqında ümumi məlumat** | Hesabat dövrü ərzində Müşahidə Şurasının bütün tərkibi əvəzsiz əsaslarla fəaliyyət göstərmişdirlər.<br>Hesabat dövrü ərzində icra orqanı rəhbərinə 126 133,71 manat ödəniş həyata keçirilmişdir. |

| |
|---|
| **Hesabat dövrü ərzində Cəmiyyətin ictimai layihələri, reytinq agentlikləri tərəfindən verilmiş reytinqləri, filialları və törəmə təsərrüfat cəmiyyətləri mövcud olmamışdır.** |

**Açıqlanmalı olan məlumatlar Azərbaycan Respublikası Mülki Məcəlləsinin 99.2-ci maddəsinə və Azərbaycan Respublikası Mərkəzi Bankının 07/1 nömrəli, 8 fevral 2024-cü il tarixli Qərarı ilə təsdiq edilmiş “İnvestisiya şirkətlərində korporativ idarəetmə Standartları”nın 15.3-cü bəndinin tələblərinə əsasən açıqlanır.*

*Qeyd: Bu sənəddə “hesabat dövrü” dedikdə 01.01.2025-31.12.2025-ci il tarixləri arası olan dövr nəzərdə tutulur.*

**Baş direktor** **Vüqar Namazov**

**Baş mühasib** **Cavid Məmmədov**